


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 224 (24.361)

*2 dekabr 2023-cü il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Dubayda COP 28 çərçivəsində təşkil olunan Dünya İqlim Fəaliyyəti Sammitinin açılış mərasimi keçirilib

### *Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib*

Dekabrın 1-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28 çərçivəsində təşkil olunan Dünya İqlim Fəaliyyəti Sammitinin açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan və BMT-nin Baş katibi Antonio Quterreş dövlətimizin başçısını qarşıladılar.

Əvvəlcə birgə foto çəkdirildi.

**AZƏRTAC**



## Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində noyabr ayının son 15 günü ərzində bir sıra qərarlar qəbul edilib. Belə ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2014-cü il 15 sentyabr tarixli Qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında qeyri-hökumət təşkilatları tərəfindən mədəniyyət sahəsində keçirilən tədbirlərin dövlət maliyyələşdirilməsi Qaydası"nda dəyişiklik edilmişdir.

Nazirlər Kabinetinin 2023-cü il 15 noyabr tarixli qərarları ilə "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının ştat cədvəlinin təsdiq edilməsi haqqında" və "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinin Aparatının və tabeliyində olan qurumların ştat cədvəllərinin təsdiq edilməsi haqqında" qərarlarında dəyişikliklər edilmişdir.

"Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müvafiq Fərmanının icrası məqsədilə Nazirlər Kabineti tərəfindən 2023-cü il 15 noyabr tarixində Sərəncam imzalanmışdır. Sərəncamın icraçılarına Agentliyin Aparatının və regional bölmələrinin işçilərinin say həddi barədə təkliflərini iki həftə müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsi və Agentliyin inzibati bina ilə təmin olunması üçün müvafiq tədbirlərin görülməsi tapşırılıb.

"Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxsin yaradılması haqqında", həmçinin "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müvafiq tarixli fərmanlarının icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən 2023-cü il 22 noyabr tarixində sərəncamlar imzalanmışdır. Sərəncama əsasən Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi Naxçıvan Avtomobil Yolları Dövlət Agentliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin hüquqi aktlarının Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim etməlidirlər.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində "Yaşıllaşdırma və Landşaft Quruluşu" Məhdud Məsuliyyətli Cəmiyyətinin təsis edilməsi haqqında Nazirlər Kabineti tərəfindən 2023-cü il 27 noyabr tarixində Qərar qəbul edilmişdir. Qərara əsasən "Yaşıllaşdırma və Landşaft Quruluşu" Məhdud Məsuliyyətli Cəmiyyəti muxtar respublika ərazisində yaşıllaşdırma sahəsində xidmətlər göstərəcək, yaşıllıqların salınması, becərilməsi, bərpası və artırılması, infrastrukturun inkişafı məqsədilə müvafiq tədbirlər həyata keçirəcəkdir.

Naxçıvan Muxtar Respublikasının 2024-cü il üzrə dövlət büdcəsinin layihəsi və Naxçıvan Muxtar Respublikasının 2024-cü il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri haqqında Nazirlər Kabineti tərəfindən 2023-cü il 28 noyabr tarixində Qərar qəbul edilib. Qeyd edək ki, "Naxçıvan Muxtar Respublikasının 2024-cü il üzrə dövlət büdcəsinin layihəsi" qanunvericilikdə nəzərdə tutulan digər sənədlərlə birlikdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim edilib.

## Sosial qayğıya ehtiyacı olan məktəblilərə qış geyimləri verilib



Hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olan, tək valideynli, sağlamlıq imkanları məhdud, aztəminatlı, çoxuşaqlı, şəhid, qazi övladları olmaqla, 40 uşağa Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən, 264 uşağa Naxçıvan Muxtar Respublikasının Həmkarlar İttifaqları Şurası tərəfindən, 150 uşağa isə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən qış geyimi verilib. Ümumilikdə, 454 xüsusi qayğıya ehtiyacı olan uşaq isti geyimlə təmin olunub.

Bu münasibətlə təşkil olunan tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin media məsələləri üzrə məsul şəxsi Günay Malikqızı, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini, nazir səlahiyyətini icra edən Elxan Nəcəfov, Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Nicat Babayev və Həmkarlar İttifaqları Şurası sədrinin müavini Ramiz Cəfərov çıxış edərək muxtar respublikada həyata keçirilən dövlət uşaq siyasətinin uğurlu nəticələri haqqında məlumat veriblər. Bildirilib ki, bu gün bütün kateqoriyalardan olan uşaqların hərtərəfli inkişafı üçün ardıcıl tədbirlər görülür. Onların hüquqlarının və sağlamlıqlarının qorunması, sosial müdafiəsinin, asudə vaxtlarının səmərəli təşkili, istedadlarının üzə çıxarılması ilə bağlı tədbirlər, o cümlədən monitorinqlər, seminarlar keçirilir.



Çıxış edənlər bildiriblər ki, sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi, reabilitasiyası, təhsili və cəmiyyətə inteqrasiyası daim diqqətdə saxlanılır, bu kateqoriyadan olan uşaqlar məktəbəqədər müəssisələrdə, ümumtəhsil məktəblərində təhsilə cəlb olunurlar. Qeyd olunub ki, muxtar respublikada həyata keçirilən kompleks tədbirlər öz bəhrəsini vermiş, sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası istiqamətində yeni mərhələnin təməli qoyulmuşdur. Bu gün sosial qayğıya ehtiyacı olan uşaqların qış geyimləri ilə təmin olunması da bu kateqoriyadan olan uşaqlara göstərilən dövlət qayğısının bariz ifadəsidir.



Tədbirdə sosial qayğıya ehtiyacı olan şagirdlərin valideynləri adından çıxış edən Turanə Tağıyeva bu kateqoriyadan olan uşaqlara göstərilən dövlət qayğısına görə dövlətimizə öz minnətdarlığını bildirib.

Tədbirin sonunda sosial qayğıya ehtiyacı olan uşaqlara qış geyimləri təqdim edilib.

Tədbir analoji olaraq muxtar respublikanın bütün rayonlarında da təşkil olunub. Belə ki, Naxçıvan şəhəri üzrə 122, Şərur rayonu üzrə 69, Babək rayonu üzrə 99, Ordubad rayonu üzrə 28, Culfa rayonu üzrə 55, Kəngərli rayonu üzrə 40, Şahbuz rayonu üzrə 14, Sədərək rayonu üzrə 27 uşaq qış geyimi ilə təmin edilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

2023-cü il “Heydər Əliyev İli”dir

# “Heydər Əliyevlə müsahibə”ni çap etdirdiyinə görə işdən “öz ərizəsilə” azad edilən jurnalistlə üz-üzə

## *Mərkəzi hakimiyyət bu müsahibəyə görə mənim ən sərt formada cəzalanmağımı göstəriş vermişdi...*

***(Əvvəli qəzetin 29 noyabr 2023-cü il tarixli sayında)***

...Bəli, sabahkı gün görüşə getdim və onu ilk gördüyümdə gözlərimə inana bilmədim. İlahi, bu o nəhəng, bütün dünyanın tanıdığı, səsini hər zaman televizordan eşitdiyim insandırmı?

“Xoş gəlmisiniz, cavan oğlan. Saatlıda nə var, nə yox?” – deyəndə sanki yuxudan ayıldım. Bəli, bu O idi! Qəribə hisslər keçirirdim. Xoşbəxtliyin elə bir dərəcəsini yaşayırdım ki, bunu sözlə ifadə etmək mümkün deyil. Mən, sözün əsl mənasında, uca bir zirvə ilə üz-üzə, nəfəs-nəfəsə idim...

...Biz arxa otağa keçdik, içəri çox səliqəli idi. Çay süfrəsi də hazırlanmışdı. Otaqda qızı Sevil xanım və nəvələri idi. Ulu Öndər müsahibənin tamamilə audioyazıya köçürülməsini istədi. Mən də bu cür edəcəyimi dedim. Amma inanın ki, hələ həyəcanım getməmişdi. Bu yerdə yenə də dahi şəxsiyyət köməyimə çatdı və mənə Saatlıda xeyli adamı tanıdığını bildirdi. Sonra isə qayıtdı ki, sənin familiyan mənə çox tanış gəlir. Kimlərdənsən? – deyə soruşdu. Dedim ki, siz respublikaya rəhbərlik edən dövrdə rayonda M. B. Qasımov adına kolxozun sədri işləyən Mansur Ağamirzəyevin oğluyam. Sonra Heydər Əliyev bir anlıq dayanıb nəyi isə xatırladı və mənə tərəf dönərək yenidən əlimi sıxdı. Tanıdım, – dedi, hətta atamı vaxtı ilə təltif etdiyi orden və medalların adlarına qədər sadaladı (Mansur Ağamirzəyev Ulu Öndərin Azərbaycana birinci rəhbərliyi dövründə “Şərəf nişanı”, “Əməkdə fərqləndiyinə görə” medalı, “Beşilliyin qalibi” döş nişanı, SSRİ və Azərbaycan Ali sovetlərinin fəxri fərmanları ilə mükafatlandırılmışdır). Sonra iki pambıqçılıq briqadiri haqqında xatirələrini danışdı. Atam başda olmaqla hamısına salamlarını çatdırmağımı xahiş etdi. Sözün həqiqi mənasında, şoka düşmüşdüm. İlahi, bu dahi insan nə qədər qeyri-adi yaddaşa malik idi.

Bütün bunlardan sonra daha ürəklənmişdim, həyəcanım da bir az getmişdi və artıq müsahibəyə başlamaq olardı.

***– Və başladınız sualları verməyə...***

– Bəli, mən suallarımı verir, Ulu Öndər də ona ünvanladığım suallara aydın, əhatəli cavab verirdi. Suallarım çoxşaxəli idi. Qarabağ məsələsi, respublikanın düşdüyü ağır ictimai-siyasi vəziyyət, latın əlifbasına keçid, dahi şəxsiyyətin özü haqqında mətbuatda gedən böhtan xarakterli yazılaradək xeyli məsələlərə toxunduq. Soruşdum ki, Moskvadan qayıtdıqdan sonra jurnalistlərdən onunla görüşən olubmu? Dedi ki, Naxçıvana gəldikdən sonra ancaq muxtar respublikanın jurnalistləri ilə görüşü olub. Təəssüflə qeyd etdi ki, Bakıdan heç bir jurnalist onunla görüşə gəlməyib. Moskvada dərc olunan qəzetlərdən bir neçəsi onun Naxçıvana qayıtmağını yazıblar. “Arqumentı i faktı” qəzeti Əliyevin Naxçıvanda əhali tərəfindən böyük izdihamla qarşılandığını yazmışdı. Amma mənə qədər Azərbaycandan heç bir rəsmi media qurumunun nümayəndəsi onunla görüşməmişdi. Hətta özü bildirdi ki, mərkəzi televiziyanın “Zaman” xəbərlər redaksiyasının




Azərbaycan üzrə müxbiri Mais Məmmədov mənə zəng edərək bildirdi ki, ona göstəriş var ki, mənimlə görüşsün, televiziyaya material hazırlasın. Mən də razılığımı verdim ki, gəlsin. Dedi o zaman sabah gəlirəm Naxçıvana. Amma gəlmədi. Düşündüm ki, burada nə isə bir səbəb var. Çünki bu onun təşəbbüsü deyildi. Fikirləşdim ki, gəlmədi, gəlməsin, eybi yoxdur. Ardınca da dedi ki, Litvadan, Estoniyadan mənim yanıma gələn jurnalistlər olub, sonra da bir neçə dəfə Moskvadan bir-iki jurnalist telefon vasitəsilə ondan müsahibə almışdı.

***– Bu günlərdə mən həmin müsahibəni yenidən oxudum. Çox maraqlı, əhatəli müsahibə idi, düşünürəm ki, Ulu Öndərin o zaman söylədiyi bir çox dəyərli fikirlər bu gün də öz aktuallığını qoruyub saxlayır.***

– Bəli, elədir. Bunu da əlavə edim ki, Ulu Öndərimiz müsahibənin yazıldığı audiokasetin üzərinə yaşadığı evin telefon nömrəsini də yazıb mənə vermişdi ki, lazım gələrsə, onunla əlaqə saxlayım. Elə oldu ki, müsahibədən iki gün sonra mən yenidən zəng edib onunla görüşə getdim. Çünki müsahibədə iki sualın cavabı lent yazısında aydın eşidilmirdi. Bu dəfə getdiyimdə Heydər Əliyev milis zabiti forması geyinmiş qohumu Bəylər müəllimə tapşırdı ki, həmin hissələri yenidən köçürsün. Yeri gəlmişkən, həmin audiokaset hazırda Heydər Əliyev Fondunda saxlanılır. Ulu Öndərin vəfatından bir il sonra 2004-cü ildə bu kaseti və müsahibənin dərc olunduğu qəzetin orijinalını həmin fonda təqdim etdim. Bu arada isə Heydər Əliyev məni otağa dəvət edərək onunla görüşə gəlmiş qonağı ilə tanış etdi. Bu, rəhmətlik Səfəralı müəllim idi. Səhv etmirəmsə, sinif yoldaşı idilər (coğrafiyaşünas alim Səfəralı Babayev S.H.). Beləliklə, üçümüz çay içə-içə xeyli söhbət etdik.

***– Həmin görüşdən sonra yenə də görüşdünüz Ulu Öndərlə, yoxsa Saatlıya qayıtdınız?***

– Yox, həmin görüşdən sonra mən “Təbriz” mehmanxanasında qalmadım, getdim Şərura, gecəni orada qaldım. Çünki artıq əməllibaşlı izləndiyimi hiss edirdim. Ertəsi gün artıq rayona qayıtmalıydım. Düşündüm ki, yenidən görüşüb sağollaşım, sonra gedim. Beləliklə, yenə həmin ünvana getdim. Səhər vaxtı idi. Təzəcə həyətə keçmişdim ki, oğlu İlham Əliyevlə görüşdüm. Bildirdi ki, Heydər Əliyev səhər yeməyi yeyir. Elə həyətdəcə onunla bir xeyli söhbət etdik. Bu söhbət zamanı İlham Əliyevin dünyagörüşü, məsələlərə yanaşma tərzi, intuisiyası məni, sözün həqiqi mənasında, heyran etdi. Bir az sonra Ulu Öndərimizlə də qısa görüşdən sonra Bakıya, oradan da rayona gəldim. Saatlıya qayıtdıqdan sonra kollektivin də köməyi ilə həmin müsahibəni qəzetə yerləşdirib böyük tirajla çap etdik. Müsahibə qəzetdə çap olunduqdan sonra artıq Bakıda xəbər tutdular və bundan sonra raykom katibi bizi yanına çağırdı. Xeyli sorğu-sual, müzakirə, ən sonda da belə qərar qəbul olundu ki, mən işdən azad olunmalıyam. Çünki Mütəllibov hakimiyyəti jurnalistin ən sərt formada cəzalandırılması göstərişini vermişdi. Beləliklə, mən “öz ərizəm ilə” işdən azad olundum. Hətta məndən “bir daha əlinə qələm almamaq şərtilə” yazılı bir iltizam da alınmışdı. Bütün bunlar sənədləşdirilərək Bakıya göndərildi və əlavə olaraq qeyd edildi ki, bu istiqamətdə lazımi tədbirlər davam etdirilir. Beləliklə, bu müsahibə mənim “Dönüş” qəzetində son yazım oldu.

***– Bəs ailənizdə bu hadisə necə qarşılandı?***

– Səbuhi müəllim, inanın, başqa bir məsələ olsa idi, bəlkə də, mənə təsir edərdi. Amma dahi Heydər Əliyevə görə bu cəzanı mən də, ailə üzvlərimizin hər biri də başucalığı, şərəf kimi qəbul etdik. Bu hadisədən sonra Heydər Əliyevi sevən insanlar mənə daha yaxın, sevməyən və yaxud qorxaq, bir tikə çörəyin əsiri olanlar məndən, atamdan, qardaşlarımdan da uzaq gəzməyə başladılar. Amma bir müddət sonra həmin riyakar insanların çoxu onun Bakıya – ali hakimiyyətə qayıdışını səbirsizliklə gözləməyə başladılar.

***– Bundan sonra işlər hansı məcrada davam etdi? Ulu Öndərlə hər hansı bir əlaqəniz oldumu, sizin işdən azad olunmağınızdan xəbəri oldumu?***

– Bu hadisədən sonra mən yenə Heydər Əliyevlə əlaqə saxlayırdım. Çox vaxt da axşam saat 10-dan sonra danışırdıq. Yəni özü belə istəyirdi. Ancaq bir neçə zəngdən sonra rayon ATS-dən Naxçıvanla əlaqə yaratmaqdan imtina etdilər. Bizim növbəti görüşümüz müsahibədən tam 1 il sonra 1991-ci ilin yay aylarında oldu. Naxçıvana getdim. Artıq Heydər Əliyev Ali Məclisin Sədri seçilmişdi. Həmin gün Ali Məclisin də iclası gedirdi. İclasın bitməsini gözləyirdim. Elə oldu ki, fasilə zamanı biz foyedə görüşməli olduq. Məni görən kimi, böyük sevinclə görüşüb hal-əhval tutmağa başladı. Bu vaxt yaxınlıqda olan Namiq Əhmədovu da yanına çağırdı. Sonra da mənə tərəf dönüb dedi ki, gözəl jurnalistdir, “Azərinform”un Naxçıvan üzrə müxbiridir. Qayıtdı ki: ***“Namiq bəy, tanış ol, Fəxrəddin Ağamirzəyev də jurnalistdir, onu oğlum qədər çox istəyirəm”.*** Namiq də dedi ki, yoldaş Əliyev, mən Fəxrəddini çoxdan tanıyıram, bir yerdə oxumuşuq. Bu zaman Heydər Əliyev ucadan gülərək dedi ki, ***“Deyirəm axı sənin xətrini niyə çox istəyirəm...”***

***– İşdən çıxarılmağınız haqqında heç nə demədiniz?***

– Yox, demədim. Onsuz da Heydər Əliyev taleyüklü məsələlərin həlli ilə məşğul idi, bəzən gec saatlara qədər işdə olurdu. İstəmirdim ki, işdən çıxarılmağımı bilsin. Mən həmin ilin payızında növbəti dəfə Naxçıvanda Heydər Əliyevlə görüşdüm. Dedi çoxdandır, görmürəm səni, bildirdim ki, ikinci ali təhsil üçün Moskvada Ümumittifaq Hüquq İnstitutuna qəbul olduğumdan başım dərslərə qarışıb. Bu zaman böyük qayğıkeşliklə, ata nəvazişi ilə mənə İlham Əliyevin telefon nömrəsini verdi ki, bir ehtiyacım olarsa, onunla əlaqə saxlayım. Amma mən birinci kursdan Bakı Dövlət Universitetinə köçürülmə etdiyimə görə buna ehtiyac olmadı. Bunu da əlavə edim ki, mən 1992-ci ilin payızında da Naxçıvana gəldim, amma həmin vaxt Heydər Əliyev Türkiyədə olduğundan onunla görüşə bilmədim. Növbəti gedişim isə 1993-cü ilin may ayına təsadüf edirdi. Daha dəqiqi mayın 21-i idi. Bu dəfə yenə Ali Məclisə getdim, öyrəndim ki, Ulu Öndər məni axşam saat $23^{00}$-da qəbul edəcək. Elə oldu ki, işin çoxluğundan rəhbərlə görüşümüz, təxminən, gecə saat $1^{00}$ radələrində oldu. Yorğun olduğuna baxmayaraq, mənimlə çox böyük səmimiyyət və mehribanlıqla görüşdü, ailə üzvlərimi xəbər aldı. Dedi ki, özüm bilərəkdən səni gec saatlaradək saxladım ki, günümü mənalı başa vurum. Bildirdi ki, bu gün həm də nəvəmin ad günüdür və bu günün xatirəsi mənim üçün çox əzizdir. Çünki bu nəvəmə mərhum həyat yoldaşımın adını vermişəm. Söhbətimiz yenə də maraqlı və əhatəli oldu. İşlərimlə maraqlandı, indi hansı qəzetdə işlədiyimi soruşdu. Bunu da deyim ki, 1990-92-ci illərlə müqayisədə Ulu Öndər Naxçıvanda artıq bir çox taleyüklü məsələlərin həllinə nail olmuş, bir sıra çətinliklər arxada qalmışdı, hiss edirdim ki, indi artıq gümrahlığı da əvvəlkindən çox-çox yaxşıdır. Ona görə də bu dəfə artıq işdən çıxarılmağımı dedim. Sonra bir az oradan-buradan söhbət edib, getmək üçün icazə istədim. Çünki gecə olmasına baxmayaraq, hələ də qəbul üçün gözləyənlər var idi. O isə zarafatla: ***“Yəqin, özün yorulmusan, get istirahət et”***, – deyərək məni hörmətlə yola saldı. Bu görüşdən sonra mən daha tez rayona qayıtmaq istəyirdim. Çünki məni intizarla gözləyənlərə daha çox sözüm var idi...

***– Deyəsən, bu, son görüşünüz olmuşdu...***

– Bəli, bundan bir az sonra artıq Ulu Öndər Bakıya qayıtdı və bu qayıdışdan sonra görüşmək imkanımız olmadı. Mən isə hüquq üzrə ali təhsil aldıqdan sonra artıq bu sahədə çalışmağa başladım və hazırda da bu sahədə fəaliyyətimi davam etdirirəm.

***– Fəxrəddin müəllim, Ulu Öndərlə bağlı xatirələriniz bizim üçün maraqlı oldu.***

– Bu haqda xatirələrim zəngindir. Amma dediyim kimi, jurnalist dostlarımızın təkidi ilə 21 il sonra mən daxilimdə yaşatdıqlarımı, arxivimdə saxladığım bütün qiymətli sənədləri kitab halında çıxarmağa razı oldum və “Dönüşdən Qurtuluşa” kitabında həmin müsahibə və digər yazılar, o cümlədən xatirələr Azərbaycan, rus və ingilis dillərində nəşr olundu.

***– Müsahibəyə görə sağ olun, işlərinizdə uğurlar arzulayırıq.***

– Sağ olun. Mən də sizin vasitənizlə “Şərq qapısı” qəzetinin kollektivinə uğurlar arzu edirəm.

**✍ Səbuhi HƏSƏNOV**
***Naxçıvan-Bakı-Naxçıvan***

# Naxçıvan Muxtar Respublikasında ilk dəfə olaraq müsahibə yolu ilə 11 ümumi təhsil müəssisəsinə məktəb direktoru təyin olunub

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin müvafiq əmri ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əhatə etdiyi ümumi təhsil müəssisələrində vakant olan direktor vəzifəsinə işə qəbul haqqında müvəqqəti Qaydalar”a uyğun olaraq ilk dəfə ümumtəhsil məktəblərində vakant olan direktor vəzifələrinə təyinatlar olub.

Direktor vəzifəsi üzrə namizədlərin müəyyən olunması iki formada təşkil edilib:

1. Yerdəyişmə qaydalarına uyğun olaraq hazırda direktor, təlim-tərbiyə işləri üzrə direktor müavini, məktəbdənkənar və sinifdənxaric tərbiyə üzrə təşkilatçı vəzifələrində çalışan namizədlərin müsahibəyə cəlb edilməsi,
2. Məktəbin növbədənkənar pedaqoji şura iclasında pedaqoji heyətin rəyi əsasında seçilən 2-3 namizədin müsahibəyə cəlb edilməsi.



Namizədlər yaradılmış komissiya tərəfindən qanunvericilik üzrə nəzəri, peşə üzrə texniki biliklər və idarəetmə bacarıqları olmaqla müsahibə olunub. Müsahibədə, ümumilikdə, 25 vakant yer üçün 55 namizəd iştirak edib. Namizədlər 5 ballıq sistemlə qiymətləndirilib və yekun orta balı 2,5 və daha yüksək olan namizədlər vəzifəyə uyğun hesab edilib. Ümumilikdə, müsahibənin nəticəsinə uyğun olaraq 11 namizəd müvafiq məktəblərə direktor vəzifəsinə təyinat alıb. Direktor təyin olunan məktəblər:

*Heydər Əliyev adına tam orta məktəb*
*Naxçıvan şəhər 5 nömrəli tam orta məktəb*
*Naxçıvan şəhər 7 nömrəli tam orta məktəb*
*Naxçıvan şəhər 17 nömrəli tam orta məktəb*
*Şərur rayonu, Qaraburc kənd tam orta məktəb*
*Şərur rayonu, Yuxarı Yaycı kənd tam orta məktəb*
*Babək rayonu, Qahab kənd tam orta məktəb*
*Babək rayonu, Göynük kənd tam orta məktəb*
*Culfa rayonu, Camaldın kənd tam orta məktəb*
*Kəngərli rayonu, Böyükdüz kənd tam orta məktəb*
*Şahbuz rayonu, Biçənək kənd tam orta məktəb.*

Yeni təyin olunan direktorlarla dekabrın 1-də görüş keçirilib. Görüşdə iştirak edən Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında Səlahiyyətli Nümayəndəliyinin media üzrə məsul şəxsi Günay Malikqızı və Naxçıvan Muxtar Respublikası təhsil naziri vəzifələrinin icraçısı, nazir müavini Elxan Nəcəfov yeni təyin olunan direktorları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş Qaydalara əsasən tədris ili ərzində vakant olan direktor, direktor müavini, məktəbdənkənar və sinifdənxaric tərbiyə üzrə təşkilatçı vəzifələrinə işə qəbul müsabiqəsinin keçirilməsi nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

***Dekabr ayı ərzində dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizdən alınmış müsahibələri, onların hazırladığı yazıları “Şərq qapısı” qəzetində görəcəksiniz.***

# Həmrəyliyimizin ən böyük ideyası – Azərbaycançılıq



## Azərbaycan mənim üçün dinlədiyimiz bir mahnıdır



***Şəhanə Hüseynova Naxçıvan Muxtar Respublikası Babək rayonunun Kültəpə kəndində doğulub. Naxçıvan Dövlət Universitetinin kimya ixtisasının bakalavr və magistr səviyyələrini bitirib. Hazırda Almaniyanın Berlin şəhərində yaşayır və Berlin Texnik Universitetində tədqiqatçı alim olaraq çalışır. Ailəlidir və bir övladı var.***

Azərbaycandan kənarda yaşadığımız 12 ilimizi tamamlayırıq. Biz təhsil almaq üçün İspanıyanın Santiaqo de Kompostela şəhərinə gəlmişdik və orada, təxminən, 7 il yaşadıq. 2019-cu ildə Almaniyaya köçmüşük. Vətəndən uzaqda yaşamaq hər an darıxmaq deməkdir, xüsusilə də ilk illər. Mən ilk olaraq iki ölkəni (İspaniya və Almaniyanı) müqayisə etmək istərdim. Azərbaycandan kənarda həyata yenidən başlamaq, yeni dostluqlar qurmaq, ətraf mühit qazanmaq uzun bir zaman aparır. Amma bu prosesi çətinləşdirən ən mühüm faktorlardan biri də ətrafda həmvətənlərinin olmaması və ya barmaqla sayılacaq qədər az olmasıdır. İspaniyada isə bu çətinlik, ən azından bizim yaşadığımız Santiaqo şəhərində həddindən artıq çox idi. İnsanın öz ana dilində günlərlə, həftələrlə bir söz belə eşitməməsi çox çətin, illərlə buna alışmaq isə başlı-başına bir dərd idi. Almaniyaya köçdükdən sonra bu çətinlik qismən aradan qalxdı, çünki burada azərbaycanlılara daha çox rast gəlirdik və bu bizi çox sevindirirdi.

Almaniyada 200 mindən çox etnik azərbaycanlı yaşayır. Həmvətənlərimiz, sadəcə, paytaxt Berlində deyil, eyni zamanda Almaniyanın, demək olar ki, əksər bölgələrində məskunlaşıblar. Bu isə təkcə paytaxt Berlində deyil, eyni zamanda azərbaycanlıların məskunlaşdıqları şəhərlərdə və bölgələrdə də birlik yaratması, onların ancaq bir-birlərinə deyil, eyni zamanda ölkəmizin xaricdə layiqincə təmsil olunmasına dəstək deməkdir. Bu dəstək diasporun fəaliyyətinə də olduqca müsbət təsir göstərir ki, bunun ən bariz nümunələrini biz Vətən müharibəsi dövründə gördük.

Mən bir neçə misal çəkmək istərdim. Frankfurtda yaşayan azərbaycanlıların bir neçə aydan bir “Yeni dostluqlar” adıyla görüşləri keçirilir. Bu görüşlərdə məqsəd bir araya gəlmək, bir-birimizlə tanış olmaq və lazım gələrsə bir-birimizə dəstək olmaqdır. Bu görüşlərdən biri bu il aprel ayının 30-da keçirildi. Müxtəlif yaş qrupundan olan və fərqli sahələrdə çalışan, təhsil alan həmyerlilərimiz saatlar boyunca bir-biri ilə söhbət edib, gözəl dostluqların təməlini qoydu. Görüşə təkcə Frankfurt Main şəhərində yaşayanlar deyil, Hessen torpağının digər şəhərlərində məskunlaşmış həmyerlilərimiz də gəlmişdi. Ümumiyyətlə, bu görüşlərə müxtəlif şəhərlərdə yaşayan və keyfiyyətli vaxt keçirmək istəyən hər kəs dəvətli olur.

Ən son – oktyabr ayında keçirilən görüşdə başlıca söhbət mövzusu Azərbaycanın Qələbəsi, torpaqlarımızın azad olunması idi. Hamı bir-birini təbrik edir, xoş sözlər deyir, arzularını ifadə edirdi. Hətta azad olunmuş torpaqlarımıza səyahət planları qurulurdu. Bu o qədər sevindiricidir ki, sözlərlə ifadə etmək olmur. Burada futbol komandamız da var. Bir ildir ki, fəaliyyət göstərir. Komanda sonuncu dəfə Müstəqilliyin Bərpası Günü münasibətilə bir oyun keçirib. Həm dövlətimiz, xalqımız üçün əhəmiyyətli olan bu tarixi qeyd etmək, həm yeni müzakirələr aparmaq, həm də komandamıza dəstək olmaq məqsədilə hər kəs yenidən bir yerə toplaşmışdı. Gələn həmtəvənlərin isə bir arzusu var idi: ”Hər şey çox gözəl keçdi, birliyimiz davamlı olsun!”

Mən istərdim bir az da bu birliklərin Azərbaycana necə dəstək olmasından söhbət açım, xüsusilə də müharibə ərəfəsində. Bilirsiniz ki, xaricdə yaşayan azərbaycanlıların hər biri ayrı bir sektorda çalışır, yəni çalışdıqları sahələr çoxçalarlıdır və demək olar ki, hər gün Azərbaycana dəstək olmaq üçün bir fürsət yaranır. Təbii ki, müasir dövrümüzdə müharibə təkcə cəbhə ilə yekunlaşmır, sosial şəbəkələr də müharibə meydanına çevrilir. Eyni zamanda çalışdığımız iş yerlərində, oxuduğumuz universitetlərdə də görürük ki, arxa cəbhə fasiləsiz fəaliyyətdədir. Ümumiyyətlə, sosial şəbəkələr ölkədən kənarda yaşayanların, demək olar ki, bir-birilə ən tez və rahat əlaqə vasitəsinə çevrilib. Hamı bir-birini bu sosial şəbəkələr vasitəsilə tapır, əlaqə yaradır, harada hansı tədbir olacağından yenə də sosial şəbəkələr vasitəsilə xəbər tuturuq.



Elə lokal xarakterli antiterror tədbirləri ərəfəsində, bu prosesdən təxminən bir ay əvvəl, avqust ayında xəbər tutduq ki, Almaniyanın Giessen şəhərinin eyniadlı universitetinin qurumu olan AstA “Online vortrag: Der vergessene Konflikt am Rande Europas – Armenien und Aserbaidschan. Der Krieg um Karabach, oder auch armenisch Arzach” (Avropanın kənarında unudulmuş münaqişə – Ermənistan və Azərbaycan. Qarabağ uğrunda müharibə, yaxud ermənilərin Artsaxı) başlığı altında onlayn seminar keçirəcəklər. Seminarın artıq başlığında – Qarabağ müharibəsi, yaxud ermənilərin Artsaxı – yazılmış qərəzli məlumat, təbii ki, hamının diqqətini çəkdi. Hər birimizi vaxt itirmədən bu məsələyə qarşı tədbir görməyə vadar etdi.

Əlbəttə ki. etiraz etmək istədik, susmaq istəmirdik, susmamalı idik. Öz hüquqlarımızdan istifadə edərək səsimizi qanuni şəkildə eşitdirmək, etirazımızı lazımi səviyyədə bildirmək qərarına gəldik. Təbii ki, universitet binasının önündə etiraz aksiyası keçirə bilməzdik, çünki təhsil azaddır və gənclərin öyrənmələrinə mane ola bilməzdik. Buna görə də daha təsiredici vasitə tapmaq lazım idi. Nəhayət, bunun daha optimal yolunu tapa bildik. Ermənilərin keçirdiyi və qeyri-obyektiv şəraitdə baş tutmalı olan tədbirin, əslində, hansı məqsədə xidmət etdiyini və Qarabağ haqqında obyektiv gerçəkliyi əks etdirən bir mətn hazırlandı. Həmin məlumat mətni universitet rəhbərliyinin, seminar təşkilatçılarının, eyni zamanda da tələbələrin elektron poçt ünvanlarına göndərildi. Hətta həmin məktuba tələbələr üçün kiçik bir qeyd də əlavə etmişdik: “Öyrənmək yalansız, qərəzsiz və tərəfsiz olduğunda gözəldir”. Nəticədə, hər kəs onların tədbirində iştirakdan imtina etdi və tədbir baş tutmadı.

Vətən müharibəsi dövründə və ondan sonrakı proseslər zamanı yaşanmış bunun kimi onlarla nümunə qeyd edə bilərəm. Bütün bu hadisələrdə ölkəmizlə həmrəyliyimizi göstərmək, əlimizdən gələni etmək üçün hər bir azərbaycanlı öz fikrini, etirazını dərhal bildirirdi. Almaniyada yaşayan azərbaycanlıların sosial şəbəkələrdə “Almaniyada yaşayan azərbaycanlılar” adlı qrupu var. Müharibə dövründə bu qrup, demək olar ki, xəbərləşmə mərkəzinə çevrilmişdi. Azərbaycan hansı şəhərdə, hansı bölgədə təkdir, hansı universitetdə dəstək lazımdır, hansı şəhərdə ermənilərin aksiyası keçirilir və biz “əks-hücum”a keçməliyik. Həmin qrup müharibə dövründə ancaq bu məqsədə xidmət edirdi. Sosial şəbəkələr informasiya müharibəsinin bir nömrəli meydanına çevrilmişdi, – desəm, qətiyyən yanlış olmaz. Ən böyük arzumuz isə hamı kimi eyni idi: Qələbə!

Nə gözəl ki, sonda bu zəfər münasibətilə bir-birimizi təbrik etmək imkanımız oldu, bir-birimizlə sevinc xəbərlərini paylaşmaq şansımız oldu. Əlbəttə ki, hər bir azərbaycanlı bu sevinci bizə, həmvətənlərinə, millətinə, dövlətinə yaşatmaq üçün canından, qanından keçən şəhidlərimizə borcludur. Biz də onların ruhu qarşısında baş əyirik, ailələrinə səbir diləyirik. Tək arzumuz isə Azərbaycanın bütövlüyünün daimi olmasıdır. Birliyinin, həmrəyliyinin daimi olmasıdır.

Sonda qeyd etmək istərdim ki, Azərbaycan mənim üçün, bəlkə də, mənim kimi xaricdə yaşayan bir çox azərbaycanlılar üçün bəzən dinlədiyimiz bir mahnıdır, o mahnının valda təkrar-təkrar çalmasıdır. Bəzən yadımıza düşən bir tapmacadır, bəzən darıxmaqdan ağlamış və şişmiş gözlərdir. Bəzən isə həsrətlə gözlənilən və ancaq eşidilməyən sözlərdir... Bəzən küçədə “azərbaycanlısınız?” sualı ilə başlayan və həftəsonu axşam evdə birlikdə plov yemək dəvəti ilə bitən saatlardır. Azərbaycan biz xaricdə yaşayanlar üçün bəzən söylənməyən sözlər, ifadə edilməyən fikirlər, gedilə bilməyən toylar və qeyd oluna bilməyən bayramlardır... Bəzənsə bunların tam əksidir. Bəlkə də, Azərbaycanda yaşayanların belə yadına düşməyən adətlərdir, ənənələrdir. Qısacası, hər şeydir... Bu hər şey üçünsə elə hər şey də qurban edilir...

*Ümid edirəm ki, ölkəmiz bir də heç vaxt müharibə ilə sınanmayacaq, bir də heç vaxt şəhid xəbərləri ilə qəlbimiz ağrımayacaq, gözlərimiz yaşlanmayacaq. Biz həmişə Azərbaycanın xoş günlərinə sevinəcək, uzaqda olduğumuz üçün o günlərin həsrətini çəkəcəyik...*

**Şəhanə HÜSEYNOVA**
***Berlin Texnik Universitetində tədqiqatçı alim, kimya elmləri doktoru***
***Almaniya, Berlin***

# *“Orqan transplantasiyası”* beynəlxalq konfransı keçirilib

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi, Türkiyənin “Medical Park” Xəstəxanalar Qrupu və Naxçıvan Həkimlər Assosiasiyasının təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş “Orqan transplantasiyası” Beynəlxalq konfransı keçirilib. İştirakçılar Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini və Heydər Əliyev Muzeyini ziyarət etdikdən sonra konfrans Naxçıvan Muxtar Respublika Xəstəxanasının akt zalında öz işinə başlayıb.*





Ulu Öndərin və Vətənimizin bütövlüyü və azadlığı uğrunda canından keçən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycanın Dövlət Himni səsləndirilib. Tədbiri açan Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini, nazir vəzifələrini icra edən Samiq Sadıxov bildirib ki, konfransda qardaş Türkiyə Respublikasında fəaliyyət göstərən “Medical Park” Xəstəxanalar Qrupunun və Bakı şəhərindən dəvət olunan həkimlərin orqan köçürülməsi barədə müxtəlif səpkili çıxışları olacaq. Diqqətə çatdırılıb ki, bu cür tədbirlərin keçirilməsində məqsəd gələcəkdə muxtar respublikanın xəstəxanalarında da orqan köçürülməsinin həyata keçirilə bilməsinə imkan yaratmaqdır.

Tədbirdə iştirak edən Türkiyə Respublikası Qazi Universitetinin rektor müavini, professor Fazlı Polat konfransın işinə uğurlar arzulayaraq Naxçıvanda Azərbaycanın Ümummilli Liderinin yüzillik yubileyi münasibətilə təşkil edilən bu konfransda iştirakından məmnunluğunu və təmsil etdiyi universitetin hər cür əməkdaşlığa hazır olduğunu bildirib.

Sonra Azərbaycan və türk cərrahlarının dünyada, Türkiyədə və Azərbaycanda orqan transplantasiyasının tarixi, donor və resipiyent prosedurları və sair mövzularda məruzələri dinlənilib.

Konfransdan sonra bir neçə iştirakçı ilə həmsöhbət olduq. “Medical Park” Xəstəxanalar Qrupunun həkimi, orqan köçürülməsi üzrə mütəxəssis, professor, ümumi cərrah ***Abuzer Dirican*** qeyd etdi ki, buraya bir neçə dəfə gəlib: – Naxçıvanda fəaliyyət göstərən xəstəxanaların maddi-texniki bazası orqan köçürülməsinə uyğundur. Amma bu cür əməliyyatdan öncə xəstənin hazırlanması, orqan köçürüldükdən sonra pasiyentin nəzarətdə saxlanılması üçün mütəxəssislərin hazırlanması vacibdir. Bunun üçün həkimlər Türkiyəyə dəvət olunacaq və ya buraya gələn mütəxəssislər onlara bu sahə üzrə təlimlər keçəcək. Lazım olan baza yaradıldıqdan sonra Naxçıvanda orqan köçürülməsinə başlanılacaq.

Qazi Universitetinin Tibb bacıları kafedrasının müdiri ***Sultan Ayaz Akkaya*** dedi: – İlk mərhələdə 30 naxçıvanlı tibb bacısının Qazi Universitetinə gəlməsi nəzərdə tutulub. Qarşılıqlı olaraq 30 türkiyəli tibb bacısı da Naxçıvandakı xəstəxanalara gələcək. Universitetimizin əməkdaşları buranın xəstəxanaları və tibbi heyəti ilə yaxından tanış olublar. Çox məmnunuq ki, qardaş diyarda belə gözəl xəstəxanalar və səmimi tibb işçiləri var.

Bakı şəhərindəki Mərkəzi Gömrük Hospitalının ümumi cərrahı, tibb üzrə fəlsəfə doktoru Mircəlal Kazımi söhbətimizdə qeyd etdi ki, konfransda gələcəkdə görüləcək işlər üçün mühüm addımlar atıldı. Orqan köçürülməsi cərrahiyyənin ən yüksək nöqtəsidir. Çünki bu əməliyyat nəticəsində sıradan çıxmış orqan yenisi ilə əvəz olunur. Bunun üçün isə təkcə mütəxəssis həkim yetərli deyil. Bu əməliyyat komanda halında görülür. İndiyə kimi burada bir neçə aksiyada iştirak edən həkim onu da diqqətimizə çatdırdı ki, Naxçıvanda ilk dəfə 2010-cu ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Bulud Cabbarov adlı gənc oğlana atasının donorluğu ilə böyrək köçürülüb. Həmin əməliyyatın icraçılarından olan həkim onu da qeyd etdi ki, bugünkü konfransın keçirilməsi 13 il öncə başlanılan işin davamıdır. Məqsəd buradakı insanların orqan köçürülməsi kimi çətin və müalicəsi uzun müddət davam edən bir prosesə əlçatanlığının təmin edilməsidir.

**Ramiyyə ƏKBƏROVA**

# Aksiya təşkil edilib



***Ümumdünya QİÇS-lə mübarizə günü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən aksiya təşkil edilib.***

Naxçıvan şəhərinin mərkəzində qurulan tibbi çadırda exspres testlərlə anonim kütləvi virus yoxlaması aparılıb. Aksiyada ilk olaraq Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Samiq Sadıxov, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin media məsələləri üzrə məsul şəxsi Günay Malikqızı iştirak ediblər. Eyni zamanda yerli sakinlər də QİÇS-lə mübarizə üçün keçirilən aksiyada iştirak edib, onlar həkimlər tərəfindən məlumatlandırılıblar.



***Pəri Əliyeva – Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin baş həkimi:*** – 1 dekabr – Ümumdünya QİÇS-lə mübarizə günüdür. Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə bu günlə əlaqədar “Cahan” Ticarət Mərkəzinin qarşısında aksiya keçirdik. Bu aksiyada müxtəlif broşürlər paylayaraq vətəndaşları məlumatlandırmağa çalışdıq. Bu maarifləndirmə tədbirləri ilə yanaşı, həm də qurduğumuz çadırda ekspres testlər vasitəsilə virus infeksiyalarının yoxlanılmasını həyata keçirdik. QİÇS-lə mübarizə günü



ilə bağlı tədbirlər Azərbaycanda uzun illərdir, davam edir. Biz çalışacağıq ki, muxtar respublikada da belə tədbirləri keçirərək insanların maarifləndirilməsini təmin edək.

✍ **Ceyhun MƏMMƏDOV**

## Həkimim

***Rubrikamızın növbəti qonağı Bakı şəhərində yerləşən “Məlhəm” hospitalının infeksion xəstəlikləri üzrə uzman həkimi Fidan Sultanovadır.***



***Qızılca nədir?***

Qızılca virus vasitəsilə yaranan yoluxucu xəstəlikdir. Yoluxmuş şəxs nəfəs aldıqda, öskürdükdə və asqırdıqda virus asanlıqla yayılır. Qızılca ağırlaşmalara və hətta ölümə səbəb ola bilir.

***Kimlər risk altındadır?***

İmmuniteti olmayan hər kəs (xüsusən də peyvənd olunmayanlar) qızılcaya yoluxa bilər. Hamilə qadınlar və peyvəndsiz uşaqlar bu xəstəliyə tutulanda ağırlaşmaları daha tez-tez olur və ən yüksək risk daşıyan onlardır.

***Övladımızı qızılcadan necə qoruya bilərik?***

Peyvəndlər qızılcaya yoluxmaqdan və ya yoluxandan sonra bu xəstəliyi yüngül keçirmək üçün ən yaxşı vasitədir. Hər bir valideyn yaşadığı yerdə ərazi üzrə tibb müəssisəsinə müraciət etməklə milli peyvənd təqvimi üzrə övladına QPM vaksini vurdura bilər. Bu peyvənd üç xəstəlikdən qoruyur: qızılca, parotit və məxmərək.

***Qızılca necə başlayır?***

Bu xəstəliyin simptomları, adətən, virusa yoluxduqdan 10 -14 gün sonra başlayır. Öskürək, burun axması, gözlərin qızarması və sulanması yanaqlarda ağ ləkələr, qızdırma ilə başlayan xəstəliyin sonrakı mərhələlərində boyunda və başda qırmızı səpgilər əmələ gəlir və bütün bədənə yayılır.

***Diqqətli olaq !***

Sadalanan əlamətləri özünüzdə və ya övladınızda hiss etdikdə ictimai yerlərə getməyin və dərhal həkimə müraciət edin. Qızılcaya yoluxmuş bir şəxs ətrafında olan 12-18 nəfərin də bu xəstəliyə yoluxmasına səbəb ola bilər. Əgər hamilə qadın bu xəstəliyə yoluxsa bu həm ana, həm də körpə üçün çox təhlükəlidir.

# Naxçıvanda şəhid Zaman Məmmədova ithaf edilmiş sənədli filmin təqdimatı olub







*“Naxçıvan Könüllülərinin Birlik Həftəsi” çərçivəsində “Zamana meydan oxuyan Zaman” sənədli filminin təqdimat mərasimi keçirilib. Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində reallaşan tədbirdə şəhid ailələri, qazilər, rəsmilər, ictimaiyyət nümayəndələri və gənclər iştirak ediblər.*

Əvvəlcə Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri səlahiyyətlərini icra edən nazir müavini, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Məcid Seyidov, “Demokratik Azərbaycan Naminə” gənclərin İctimai Birliyinin (DANİB) sədri Elməddin Behbud Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı şanlı qələbədən söz açıb, döyüşlərdə mərdliklə iştirak edən Vətən oğullarının böyük şücaət və qəhrəmanlıqlarından danışıblar. Şəhid yaxınlarına ehtiramlarını ifadə edən natiqlər qəhrəmanlarımızın həyatı və döyüş yolunun gənclərin vətənpərvərlik tərbiyəsində müstəsna rola malik olduğunu, gələcək nəsillərə ali dəyərlər aşıladığını vurğulayıblar. Çıxış edənlər şəhid ailələri və qazilərə göstərilən dövlət qayğısından, igidlərimizin tərənnümü istiqamətində görülən işlərdən bəhs ediblər. Qeyd olunub ki, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə “Bir ölər, min dirilərik” layihəsi çərçivəsində DANİB tərəfindən hazırlanan 3 filmdən biri də Kəngərli rayonundan olan Vətən müharibəsi şəhidi Zaman Məmmədova ithaf olunub. Layihə çərçivəsində Bakıda və Naxçıvanda aparılan film çəkilişlərində şəhidlərimizin ailə üzvləri, döyüş yoldaşları və dostları iştirak ediblər.

Dövlətimizin şəhid ailələrinə göstərdiyi qayğıdan məmnunluğunu ifadə edən qəhrəman şəhidimizin atası Habil Məmmədov filmin ərsəyə gəlməsində və təqdimatında əməyi, dəstəyi keçənlərə, o cümlədən iştirakçılara minnətdarlıq edib, bu cür filmlərin digər şəhidlərimiz haqqında çəkilməsi arzusunu diqqətə çatdırıb.

Çıxışların ardınca tədbir iştirakçıları sözügedən filmi böyük maraq və həyəcanla izləyiblər. İzləyənlər ekran işi vasitəsilə şəhid Zaman Məmmədovun həyatı və döyüş yolu ilə bağlı xatirələri dinləyib, hərbçi kimi qazandığı uğurlar barədə məlumatlanıblar.

Qeyd edək ki, şəhid Zaman Məmmədov Prezident cənab İlham Əliyevin Sərəncamı ilə 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni, həmçinin “Vətən uğrunda”, “Şuşanın azad olunmasına görə”, “Hərbi xidmətlərə görə”, “Füzulinin azad olunmasına görə” və “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.

# *“Naxçıvan Könüllülərinin Birlik Həftəsi”*nə start verilib

5 dekabr – Beynəlxalq Könüllülər Günü Naxçıvanda hər il olduğu kimi, bu dəfə də geniş şəkildə qeyd olunur. Heydər Əliyev Muzeyində “Könüllünü inkişafa aparan yol” adlı tədbirlə “Naxçıvan Könüllülərinin Birlik Həftəsi”nə start verilib. Tədbir çərçivəsində Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, iştirakçılar muzeyin ekspozisiya zalı ilə tanış olublar.





Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri səlahiyyətlərini icra edən, nazir müavini Məcid Seyidov, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru, Milli Məclisin deputatı Cəbi Quliyev gəncləri əlamətdar gün münasibətilə təbrik edib, mövzu ilə bağlı fikirlərini bölüşüblər. Qeyd olunub ki, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda könüllü hərəkatı geniş vüsət alıb. Könüllü fəaliyyətin hüquqi bazası yaradılıb, müxtəlif dövlət və özəl qurumlarda gənclərin könüllülük fəaliyyətinə cəlbinə dəstək göstərilib. Vurğulanıb ki, Naxçıvanda fəaliyyət göstərən könüllülərin və könüllülərlə işləyən təşkilatların sayı artmaqdadır və bu da gənclərimizin gələcək həyatı, karyerası üçün yeni imkanların, təcrübələrin qazanılması deməkdir.

Gənclərdən Zəhra İsmayılova könüllü kimi öz fəaliyyəti və onlara göstərilən dəstəkdən danışıb, minnətdarlığını ifadə edib.

Qeyd edək ki, “Naxçıvan Könüllülərinin Birlik Həftəsi” çərçivəsində voleybol turniri də təşkil olunub. Layihə çərçivəsində müxtəlif konseptdə tədbirlərlərin keçirilməsi nəzərdə tutulur.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Xalq şairi Məmməd Arazın anım gününə həsr olunmuş tədbir keçirilib



Xalq şairinin Şahbuz rayonunun Nursu kəndində yerləşən ev-muzeyində təşkil edilən tədbiri giriş sözü ilə muzeyin direktoru Əzizə Süleymanova açıb. Bildirilib ki, milli poeziyamıza əvəzsiz töhfələr verən Xalq şairi, tərcüməçi, publisist, Əməkdar incəsənət xadimi Məmməd Araz ədəbiyyat tariximizdə Azərbaycanın milli istiqlaliyyəti, birliyi və ərazi bütövlüyü uğrunda öz qələmi ilə mübarizə aparan sənətkarlardan biri olub. Təsadüfi deyil ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra Vətənin ən ali mükafatı sayılan “İstiqlal” ordeninə layiq görülmüş şairlərdən biri də məhz Məmməd Araz olub. Ümummilli Lider Heydər Əliyev Məmməd Araz yaradıcılığına və şəxsiyyətinə hər zaman böyük diqqət göstərib. Ölkə Prezidenti cənab İlham Əliyevin “Məmməd Arazın 80 illik yubileyinin keçirilməsi haqqında” Sərəncamı ilə şairin yubileyi dövlət səviyyəsində qeyd olunub, xatirəsi müxtəlif ünvanlarda əbədiləşdirilib. Bu gün ölkəmizin hər yerində, eləcə də Naxçıvanda Xalq şairinin irsi öyrənilir, təbliğ olunur.

Sonra Şahbuz Rayon İcra Hakimiyyətinin əməkdaşı Firudun Həmzəyev, AMEA Naxçıvan Bölməsinin əməkdaşı Ramiz Qasımov və “Şərq qapısı” qəzetinin əməkdaşı Fariz Əhmədov çıxış edərək şairin Azərbaycan ədəbiyyatında istiqlal düşüncəsinin və milli birliyin təbliğindəki rolundan danışıb. Çıxışlarda vurğulanıb ki, dərinməzmunlu, oxunaqlı və milli mündəricəli şeirləri ilə Məmməd Araz vətəndaş qeyrətli ədəbiyyat nəhəngidir. Bu görkəmli şair həm də milli azadlıq ideyalı əsərləri ilə istiqlal şairi olaraq əbədi şöhrət qazanıb. Bildirilib ki, şair oxunaqlı, sənətkarcasına yazılmış poeziya nümunələrində ana dilinin



üslub imkanlarından qeyri-adi dərəcədə yararlanıb, dilimizin bütün zənginliyi, dərinliyi, əlvanlığı şairin poetik misralarında əks olunub.

Sonra Nursu kənd tam orta məktəbinin müəllimi, Məmməd Arazın qardaşı oğlu Elvin İbrahimov və bacısı oğlu Cavanşir Məmmədov şairlə bağlı xatirələrindən söhbət açıb, məktəbin şagirdləri şairin şeirlərini bədii qiraət ediblər.

✍ **Fariz ƏHMƏDOV**

### İtmişdir

Şərur rayonunun Mahmudkənd sakini Ağarzayev Məhərrəm İbrahim oğlunun adına olan JN-629$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhərinin Qaraçuq kəndində Fərəcov Tofiq Əli oğluna məxsus olan JN-385$^{A}$ nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor müavini: MƏMMƏD BABAYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Fariz Əhmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 690